Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrində dəyişikliklər haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında Qərar"ına 2019-cu il 10 yanvar tarixində dəyişikliklər edilib. Dəyişikliklərə əsasən Azərbaycan Respublikasının ərazisinə gətirilən və aksiz vergisinə cəlb olunan malların siyahısına bir sıra yeni mal mövqeləri və onlara tətbiq olunacaq aksiz vergisinin ölçü vahidlərinin manatla müəyyən edilən dərəcələri əlavə edilib, həmçinin mövcud mal mövqeləri üzrə aksiz vergisinin dərəcələrində dəyişikliklər olunub.

Yeni qəbul olunmuş Qərar ilə əlavə olunan mal mövqeləri və onların aksiz dərəcələri, habelə mövcud olan mal mövqeləri üzrə aksiz vergisinin dərəcələri aşağıdakı kimi müəyyən edilib:

- şəkər əlavələri və ya digər şirinləşdirici və ya dad-aromatik maddələr əlavə edilmiş alkoqolsuz energetik içkilərin 1 (bir) litrinə görə 3 (üç) manat aksiz vergisi tətbiq edilir;
- meyvə və tərəvəz şirəsi əsaslı alkoqolsuz energetik içkilərin 1 (bir) litrinə görə 3 (üç) manat aksiz vergisi tətbiq edilir;
- tutumu 2 litrdən az olan alkoqollu energetik içkilərin 1 (bir) litrinə görə 2 (iki) manat aksiz vergisi tətbiq edilir;
- tutumu 2 litrdən çox olan alkoqollu energetik içkilərin 1 (bir) litrinə görə 2 (iki) manat aksiz vergisi tətbiq edilir;
- tərkibində tütün olan siqarların, o cümlədən ucları kəsilmiş siqarların 1 (bir) ədədi üçün 1 (bir) manat aksiz vergisi tətbiq edilir;
- tərkibində tütün olan siqarillaların 1000 (bir min) ədədi üçün 20 (iyirmi) manat aksiz vergisi tətbiq edilir;
- tərkibində tütün olan siqaretlərin 1000 (bir min) ədədi üçün 28 (iyirmi səkkiz) manat aksiz vergisi tətbiq edilir;
- tərkibində tütün əvəzləyicisi olan siqarların 1 (bir) ədədi üçün 1 (bir) manat aksiz vergisi tətbiq edilir;
- tərkibində tütün əvəzləyicisi olan siqarillaların 1000 (bir min) ədədi üçün 20 (iyirmi) manat aksiz vergisi tətbiq edilir;

- tərkibində tütün əvəzləyicisi olan siqaretlərin 1000 (bir min) ədədi üçün 28 (iyirmi səkkiz) manat aksiz vergisi tətbiq edilir.

Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı linklərdən istifadə oluna bilər:

http://e-qanun.az/framework/4590

http://e-qanun.az/framework/41597